## Baş redaktordan

# MƏSLƏKƏ MÜXALİF DEYİLİK



*Əli Rza XƏLƏFLİ*

Bu, "Kredo" qəzetidir. "Kredo" adının seçilməsi isə təsadüfi deyil. Bu sözün gqidə, məslək, amal, inam çalarları qaze timizin mahiyyəti və məzmununda öz aksini tapacaq. Başa düşürük; indiki qəzet bolluğu bazarında "Kredo" adının körünməsi ilk baxışdan, bəlkə də, razılıqla qarşılanmadı. Amma yaxşı başa düşürük ki, "Kredo" adı ilə və adına uyğun məzmunu ilə nəşrə başlayan qəzetə Azərbaycan mənəviyyatının ehtiyaçı var. Söhbət onda deyil ki, biz kimisə bəyənmirik, yaxud kim tərəfindənsə bəyənilməyi arzu edirik. Əxlaqi dəyərlərimizin uçuzlaşdığı bir dövrdə, min illər boyu yaranmış ən'ənələrimizin, adətlərimizin az qala unudulmaq mərhələsinə kəldiyi bir vaxtda... XX əsrin sonunu yaşamaq və XXI əsri görmək qismətində olan nəsil bütün bunlara körə məs'uliyyət daşıyır. Budur, ilk nömrə 03 oxuçusundadır. Əgər bu nömrədə dərc olunan yazılar oxuçunun mənəvi dünyasına qismən də olsa yol tapa bilibsə, kimisə külümsəməyə, kimisə düşünməyə, düşündürməyə nail olmuşuqsa, bunu işimizin başlanğıcı üçün uğur hesab edirik.

Siyasətə qurban verilən həqiqətlər bir çox hallarda həqiqəti deməkdən çox ucuz şöhrət xatirinə populist çıxışçılıq xəstəliyi xalqın inamını söndürür, mənəviyyatında çatlar yaradır. Öz keçmişindən gülə-gülə ayrılmaq; dünyanın sivilizasiyaya doğru sınaqdan çıxmış yolu budur. Axı münəccimliklə «günəş adasına» getmək olmaz.

Azərbaycan Şərq mifologiyasına körə xeyirlə şər əbədi mubarizadadir. Dərç etdiyi miz yazılarda obyektivliyi qoruya biləçəyiksə, onda özümüzü əbədi mubarizədə xeyirin tərə fində sanaçağıq. Azərbaycan mənəviyyatına yol tapan yabançı meyllər, yalanlar, hətta şərlər, böhtanlar, qadın ləyaqətinə ucuz münasibət hamımızı dilgir edir və istər-istəməz keçmişi yada salır. Bu, nostalgiya deyil. "Çağdaş günümüzlə muqayisədə gələcəyə hansı yolla kedəcəyik" sualı ətrafında düşünməyə məcbur olursan. Bu düşünçələrdə söhbət keçmişi idealizə etməkdən getmir.

"Kredo" oz səhifələrində tarixi həqiqətlərə geniş meydan verəçək. Fikir pluralizmi əsasında obyektiv, demokratik düşünçə tərzi, sivil mübahisə və mubahisələrdən doğan həqiqətlər... Bütün bunlar bizim oxuçu muəllif məsafəmizdə korpümüz olacaqdır. "Kredo" içtimai-siyasi qəzet olmaqla bərabər, həm də ədəbi publisistikanın dəyərli nümunələrini məmnuniyyətlə çap edəçək.

İlk sayımızdakı "Yüz dahidən birinçisi. Məhəmməd" oçerkinin bəxş etdiyi mənəvi estetik zövqü özümüz üçün ən böyük xeyir-dua hesab edirik.

Hər halda inam, əqidə insanın həyatının mənasıdır. Başqa səzlə, tarix insanın inamı və əqidəsi uğrunda mübarizəsidir. Bu mənada "Kredo" bəşəri dəyərləri də qorumağa borcludur. Eyni zamanda kələcək nəslin öz soykökü üzərində boy göstərməsi,



vəteninin, torpağının adı ilə faxr etməsi naminə hər çür fədakarlığa da hazırdır.

"Kredo" həm də gəncliyin qəzetidir. Bu qəzetdə sözün dəyəri, sözün şərəfi qorunacaqdır. Bazar uğuru naminə sözü kirov qoymayacağıq. Bəlkə deyilməyin həsrətində olan sözü öz sahibinə çatdırmaq bizim "Kredo"muz olacaqdır.

***"Kredo" qəzeti №1(01),***
***12 oktyabr 1999 cu il***

**REDAKSİYADAN:** *Bu yazı düz iyirmi yeddi il bundan əvvəl - ötən əsrin 99-cu ilinin oktyabr günlərində dərc olunub, qəzetin ilk sayında. Əslində yazının sonundakı tarix kifayət qədər məlumat verir.*

*O vaxt qəzetin məramını oxucu düşüncəsinə çatdırmaq üçün şərq miniatüründən istifadə etmişdik. Xeyirlə şər çarpışır. Keçdiyimiz yolda Xeyirin qələbəsi üçün sözümüzlə savaş açdıq. Nə qədər, necə haqqa, həqiqətə dayaq olduq - bunu hər kəs özü bilər.*